**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№311/2** **4 iyun 2019-cu il**

# "Auditi aparılan təsərrüfat subyektinin yeni və əvvəlki auditorlarının qarşılıqlı münasibət və hərəkətlərinə dair metodik vəsaitin hazırlanması" barədə

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda, Beynəlxalq Audit Standartlarının (BAS) tələblərində, Peşəkar Mühasiblərin Etika Məcəlləsində, "Azərbaycan Respublikasında Auditor Xidmətinin İnkişaf Konsepsiyasında (2012-2020-ci illər)", Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2017-ci il 20 dekabr tarixli 295/1 nömrəli "Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə Partnyorluq Sazişi"ndə və Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 1.2.4-cü "Auditi aparılan təsərrüfat subyektinin yeni və əvvəlki auditorlarının qarşılıqlı münasibət və hərəkətlərinə dair metodik vəsaitin hazırlanması" bəndində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsini təmin etmək məqsədilə Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsi (S.Gülməmmədov) və Maliyyə və təşkilati-texniki təminat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış "Auditi aparılan təsərrüfat subyektinin yeni və əvvəlki auditorlarının qarşılıqlı münasibət və hərəkətlərinə dair metodik vəsait"in Auditorlar Palatasında 2019-cu il 22 aprel tarixində keçirilmiş "Dəyirmi masa"da müzakirə edilərək irad və təkliflər nəzərə alınmaqla yenidən işlənib hazırlanmış layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditi aparılan təsərrüfat subyektinin yeni və əvvəlki auditorlarının qarşılıqlı münasibət və hərəkətlərinə dair metodik vəsait" təsdiq edilsin (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinə tapşırılsın ki, metodik vəsaitin istifadə üçün auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Bu metodik vəsaitin tələblərinə əməl etməyən auditorların hərəkəti Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə riayət edilməməsi halı kimi qiymətləndirilsin.
4. Aparatın rəhbəri Q.Bayramova tövsiyə edilsin ki, Auditorların Peşə Etikası Məcəlləsi hazırlanarkən "Yeni auditorun əvvəlki auditora müraciəti və əvvəlki auditorun hərəkətləri qaydası"nın müvafiq maddələri həmin Məcəllədə əks etdirilsin.
5. Bu qərarın və metodik vəsaitin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**